**27.01.2023: xəbər**

**Meeting with Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye**

Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye received the delegation of Khazar University within the framework of the " Türkiye-Azerbaijan youth exchange program".

Numan Nafiz Şahin, head of Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye welcomed the guests and expressed his satisfaction with their meeting in Kirshehir. He thanked the students for their active participation in the program.

The head of the delegation, Alovsat Amirbeyli, thanked Numan Nafiz Şahin, head of Kirshehir Provincial Directorate of Youth Services and Sports of the Republic of Türkiye and his staff for their hospitality, and presented the Shusha plaque of Khazar University and the gift of Azerchay, the National Brand of Azerbaijan, to Numan Nafiz Şahin, department head Aslan Uçara and project manager Hakan Avşar.

As a sign of brotherhood, Numan Nafiz Şahin presented the flag of the Turkish state embroidered on canvas to the head of the delegation Alovsat Amirbeyli and the Ahi Evran-Veli plaque to the coordinator of the delegation Fatima Valiyeva due to her high level of organization.

The students of Khazar University who participated in the project expressed their satisfaction with the program and all the official meetings held in Ankara-Kirshehir and expressed their deep gratitude to the Ministry of Youth and Sports and personally to Kirshehir Provincial Director Numan Nafiz Şahin for all the care and love shown to them. The members of the delegation got acquainted with the employees of the "Genç Studio" radio center of the Ministry of Youth and Sports, and memory photos were taken.

**Türkiyə Cümhuriyyəti Gənclər və İdman Nazirliyi Kırşehir rayon rəhbərliyi ilə görüş**

Gənclər və İdman Nazirliyinin Kırşehir rayon rəhbərliyi "Türkiyə-Azərbaycan gənclərinin mübadilə proqramı" çərçivəsində Xəzər Universitetinin nümayəndə heyətini qəbul etdi.

Gənclər və İdman Nazirliyi Kırşehir İl müdiri Numan Nafiz Şahin qonaqları salamlayaraq, Kırşehirdə görüşməsindən məmnun olduğunu bildirdi. Proqramda aktiv iştiraklarına görə tələbələrə dərin təşəkkürünü bildirdi.

Nümayəndə heyətinin rəhbəri Əlövsət Əmirbəyli Gənclər və İdman Nazirliyi Kırşehir İl müdiri Numan Nafiz Şahinə və onun rəhbərlik etdiyi kollektivinə göstərdikləri qonaqpərvərlikdən dolayı təşəkkür etdi və Xəzər Universitetinin Şuşa plaketini və Azərbaycanın Milli Brendi olan Azərçayın hədiyyəsini Numan Nafiz Şahinə, şöbə müdiri Aslan Uçara və layihənin rəhbəri Hakan Avşara təqdim etdi.

Numan Nafiz Şahin qardaşlıq əlaməti olaraq, Türkiyə dövlətinin kətan üzərində işlənmiş bayrağını nümayəndə heyətinin rəhbəri Əlövsət Əmirbəyliyə və göstərdiyi yüksək təşkilatçılığından dolayı nümayəndə heyətinin koordinatoru Fatimə xanım Vəliyevaya Ahi Evran-Veli plaketini təqdim etdi.

Layihə çərçivəsində iştirak edən Xəzər Universitetinin tələbələri proqramdan və Ankara-Kırşehirdə keçirilən bütün rəsmi görüşlərdən məmnun qaldıqlarını və onlara göstərilən hər cür qayğı və sevgiyə görə Gənclər və İdman nazirliyinə və şəxsən Kırşehir İl müdürü Numan Nafiz Şahinə dərin təşəkkürlərini bildirdilər. Nümayəndə heyətinin üzvləri Gənclər və İdman Nazirliyinin "Gənc Studio" radio mərkəzinin əməkdaşları ilə tanış oldular və xatirə şəkilləri çəkildi.